## “Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiyası”na qoşulmaq haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2005-ci il 23 noyabr tarixli “Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiyası”na müvafiq bəyanatlarla (bəyanatların mətni əlavə olunur) qoşulsun.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2018-ci il
№1020-VQ

## Birləşmiş Millətlər Təşkilatının “Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair KONVENSİYA”sı

Bu Konvensiyaya Tərəf Dövlətlər,

bərabərlik və qarşılıqlı faydaya əsaslanan beynəlxalq ticarətin dövlətlər arasında dostluq münasibətlərinin təşviq etdirilməsinin mühüm elementi olmasına əminliklərini bir daha təsdiq edərək,

elektron kommunikasiyalardan artan istifadənin kommersiya fəaliyyətinin səmərəliliyini təkmilləşdirdiyini, ticarət əlaqələrini genişləndirdiyini və əvvəllər uzaq olan tərəflər və bazarlar üçün yeni çıxış imkanları açdığını, bununla da həm yerli, həm də beynəlxalq səviyyədə ticarət və iqtisadi inkişafın təşviq olunmasında əsaslı rol oynadığını qeyd edərək,

beynəlxalq müqavilələrdə elektron kommunikasiyalardan istifadə edilməsinin hüquqi dəyəri ilə bağlı qeyri-müəyyənliklə əlaqədar yaranan problemlərin beynəlxalq ticarətə maneə olduğunu nəzərə alaraq,

beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadə edilməsinə qarşı maneələrin, o cümlədən beynəlxalq ticarət sahəsində mövcud hüquqi sənədlərin yerinə yetirilməsi nəticəsində meydana çıxa biləcək maneələrin aradan qaldırılmasına yönəlmiş vahid qaydaların qəbul olunmasının beynəlxalq müqavilələrlə bağlı hüquqi müəyyənliyi və kommersiya proqnozlarının verilməsi imkanlarını daha da artıracağına və dövlətlərə müasir ticarət marşrutlarına çıxış əldə etməyə yardım edəcəyinə inanaraq,

texnoloji bitərəflik və funksional bərabərlik prinsipləri nəzərə alınaraq, tərəflərin seçdiyi vasitələrin müvafiq hüquq normalarının məqsədlərinə cavab verməsi şərtilə, vahid qaydaların tərəflərin müvafiq informasiya daşıyıcıları və texnologiyalarla bağlı seçim etmək azadlığına hörmət etməli olduğu fikrində qalaraq,

elektron kommunikasiyalardan istifadə olunmasına hüquqi maneələrin aradan qaldırılmasında müxtəlif hüquqi, sosial və iqtisadi sistemlərə malik dövlətlər üçün məqbul olan ümumi həll yollarının təmin edilməsini arzu edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Fəsil I

## TƏTBİQ SAHƏSİ

Maddə 1. **Tətbiq dairəsi**

1. Bu Konvensiya fəaliyyət yerləri müxtəlif dövlətlərdə olan tərəflər arasında müqavilələrin bağlanılması və ya yerinə yetirilməsi ilə əlaqədar elektron kommunikasiyalardan istifadəyə tətbiq edilir.

2. Tərəflərin fəaliyyət yerlərinin müxtəlif dövlətlərdə yerləşməsi faktı, bu faktın müqavilədən və ya Tərəflər arasındakı hər hansı sövdələşmələrdən və ya Tərəflərin müqavilənin bağlanılması zamanı və ya ondan əvvəl istənilən vaxt açıqladığı məlumatlardan irəli gəlməzsə, nəzərə alınmır.

3. Bu Konvensiyanın tətbiqini müəyyən edərkən nə tərəflərin milli mənsubiyyəti, nə də tərəflərin və ya müqavilənin mülki və ya kommersiya xarakteri nəzərə alınmır.

Maddə 2. **İstisnalar**

1. Bu Konvensiya aşağıdakılardan hər hansı birinə aid elektron kommunikasiyalara tətbiq edilmir:

a. şəxsi, ailə və ya ev təsərrüfatı məqsədləri üçün bağlanmış müqavilələrə;

b. (i) tənzimlənən fond birjasında olan əməliyyatlara; (ii) xarici valyuta mübadiləsi əməliyyatlarına; (iii) banklararası ödəniş sistemlərinə, banklararası ödəniş müqavilələrinə və ya qiymətli kağızlar və ya digər maliyyə aktivləri və ya alətləri ilə bağlı klirinq və hesablama sistemlərinə; (iv) vasitəçidə saxlanılan qiymətli kağızlar və ya digər maliyyə aktivləri və ya alətlərinin geri satınalınmasına razılıq və ya onların satışı, girovu və ya sahibliyi ilə bağlı təminat hüquqlarının ötürülməsinə.

2. Bu Konvensiya köçürmə veksellərə, sadə veksellərə, nəqliyyat qaimələrinə, konosamentlərə, anbar qəbzlərinə və ya təqdim edənə və ya benefisiara əmtəələrin çatdırılmasını və ya pul məbləğinin ödənilməsini tələb etmək hüququ verən hər hansı ötürülə bilən sənədə və ya vasitəyə tətbiq edilmir.

Maddə 3. **Tərəflərin iradə azadlığı**

Tərəflər bu Konvensiyanın tətbiq olunmasını istisna edə və ya onun hər hansı müddəalarından imtina edə və ya onun hüquqi qüvvəsini dəyişdirə bilər.

Fəsil II

## ÜMUMİ MÜDDƏALAR

Maddə 4. **Anlayışlar**

Bu Konvensiyanın məqsədləri üçün:

a. “kommunikasiya” dedikdə, müqavilənin bağlanılması və ya icrası ilə əlaqədar tərəflərdən etmək tələb olunduğu və ya onların etməyi qərara aldıqları hər hansı bəyanat, deklarasiya, tələb, bildiriş və ya sorğu, habelə təklif və təklifin qəbulu nəzərdə tutulur;

b. “elektron kommunikasiya” dedikdə, tərəflərin məlumat ismarıcları vasitəsilə həyata keçirdikləri istənilən rabitə nəzərdə tutulur;

c. “məlumat ismarıcı” dedikdə, elektron məlumat mübadiləsi, elektron poçt, teleqram, teleks və ya telefaks da daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, elektron, maqnit, optik və ya oxşar vasitələrlə hazırlanan, göndərilən, qəbul edilən və ya saxlanılan məlumatlar nəzərdə tutulur;

d. “elektron kommunikasiyanın təşəbbüskarı” dedikdə, elektron kommunikasiyaya münasibətdə vasitəçi qismində çıxış edən tərəf (əgər varsa) istisna olmaqla, saxlamadan əvvəl elektron kommunikasiyanın kim tərəfindən və ya kimin adından hazırlandığı və ya göndərildiyi tərəf nəzərdə tutulur;

e. - “elektron kommunikasiyanın ünvan sahibi” dedikdə, elektron kommunikasiyaya münasibətdə vasitəçi qismində çıxış edən tərəf istisna olmaqla, elektron kommunikasiyanın təşəbbüskarının həmin kommunikasiyanın kim tərəfindən əldə edilməsini nəzərdə tutduğu tərəf başa düşülür;

f. “informasiya sistemi” dedikdə, məlumat ismarıclarının hazırlanması, göndərilməsi, qəbul edilməsi, saxlanması və ya hər hansı digər şəkildə emal edilməsi üçün nəzərdə tutulan sistem başa düşülür;

g. “avtomatlaşdırılmış ismarıc sistemi” dedikdə, sistem tərəfindən hər dəfə əməliyyat başlandığı və ya cavab hazırlandığı zaman hər hansı fiziki şəxsin baxışı və ya müdaxiləsi olmadan, əməliyyatı başlamaq və ya məlumat ismarıclarına və ya fəaliyyətə tam və ya qismən cavab vermək üçün istifadə olunan kompüter proqramı, yaxud elektron və ya digər avtomatlaşdırılmış vasitələr nəzərdə tutulur;

h. “fəaliyyət yeri” dedikdə, tərəfin müəyyən yerdən kənarda müvəqqəti əsasda əmtəə və ya xidmətləri göstərməsindən savayı iqtisadi fəaliyyətlə məşğul olmaq üçün malik olduğu qeyri-müvəqqəti müəssisəsini saxladığı istənilən yer nəzərdə tutulur.

Maddə 5. **Təfsir**

1. Bu Konvensiyanın təfsiri zamanı onun beynəlxalq xarakterinə və tətbiq edilməsində vahidliyin təşviq olunması zəruriliyinə, habelə beynəlxalq ticarətdə dürüstlüyə riayət edilməsinə diqqət edilməlidir.

2. Bu Konvensiya ilə tənzimlənən, lakin burada öz həllini aydın şəkildə tapmayan məsələlər, bu Konvensiyanın əsaslandığı ümumi prinsiplər və ya bu cür prinsiplərin olmadığı halda, beynəlxalq xüsusi hüququn normaları əsasında tətbiq olunan hüquqa uyğun olaraq həll olunmalıdır.

Maddə 6. **Tərəflərin yeri**

1. Bu Konvensiyanın məqsədləri üçün, əgər digər tərəf bəyan edən tərəfin göstərdiyi yerdə fəaliyyət yerinin olmadığını bəyan etmirsə, tərəfin göstərdiyi yer onun fəaliyyət yeri hesab olunur.

2. Əgər hər hansı tərəf fəaliyyət yerini göstərməzsə və ya birdən çox fəaliyyət yerinə malik olarsa, o zaman bu Konvensiyanın məqsədləri üçün fəaliyyət yeri müqavilənin bağlanılması zamanı və ya ondan əvvəl istənilən vaxt tərəflərə məlum olan

və ya onların ehtimal etdikləri hallar nəzərə alınmaqla, müvafiq müqaviləyə ən çox aidiyyəti olan fəaliyyət yeri hesab olunur.

3. Əgər fiziki şəxs fəaliyyət yerinə malik deyilsə, onun yaşayış yerinə istinad edilməlidir.

4. Hər hansı bir məkan sırf aşağıdakılar səbəbindən fəaliyyət yeri ola bilməz: (a) həmin məkanda müqavilənin bağlanması ilə bağlı hər hansı tərəfin istifadə etdiyi informasiya sistemini dəstəkləyən avadanlıq və texniki vasitə yerləşmişdir; yaxud (b) həmin informasiya sisteminə digər tərəflər də daxil ola bilər.

5. Hər hansı tərəfin konkret ölkə ilə bağlı olan domen adı və ya elektron poçt ünvanından istifadə etməsi faktı onun fəaliyyət yerinin həmin ölkədə yerləşdiyini ehtimal etməyə əsas vermir.

Maddə 7. **İnformasiya tələbləri**

Bu Konvensiyada heç nə tərəflərdən onların eyniliyini, fəaliyyət yerini və ya digər məlumatları açıqlamağı tələb edən hüquq normasının tətbiqinə təsir edə bilməz, yaxud tərəfi bunlarla bağlı olan qeyri-dəqiq, natamam və ya yanlış bəyanatlar verməsinin hüquqi nəticələrindən azad edə bilməz.

Fəsil III

## BEYNƏLXALQ MÜQAVİLƏLƏRDƏ ELEKTRON KOMMUNİKASİYALARDAN İSTİFADƏ OLUNMASI

Maddə 8. **Elektron kommunikasiyaların hüquqi tanınması**

1. Kommunikasiya və ya müqavilənin elektron kommunikasiya formasında olması onun etibarlılığının və ya hüquqi qüvvəsinin təkzib edilməsinə əsas deyildir.

2. Bu Konvensiyada heç nə tərəfdən elektron kommunikasiyalardan istifadə etməyi və ya onu qəbul etməyi tələb edə bilməz, lakin tərəfin davranışı onun razı olması qənaətinə gəlməyə əsas verə bilər.

Maddə 9. **Forma ilə bağlı tələblər**

1. Bu Konvensiyada heç nə kommunikasiya və ya müqavilənin hər hansı xüsusi formada tərtib və ya təsdiq olunmasını tələb etmir.

2. Qanunvericilik kommunikasiya və ya müqavilənin yazılı formada olmasını tələb etdiyi təqdirdə və ya yazılı formada olmamasına görə nəticələr müəyyən etdiyi təqdirdə, o zaman orada olan informasiyadan sonra da istifadə etmək mümkündürsə, həmin tələb elektron kommunikasiya ilə yerinə yetirilmiş hesab edilir.

3. Qanunvericilik kommunikasiya və ya müqaviləni tərəfin imzalamasını tələb etdiyi təqdirdə və ya imzanın olmamasına görə nəticələr müəyyən etdiyi təqdirdə, həmin tələb elektron kommunikasiyaya münasibətdə aşağıdakılar həyata keçirildikdə yerinə yetirilmiş hesab edilir:

a. tərəfin müəyyənləşdirilməsi və elektron kommunikasiyadakı informasiya ilə bağlı həmin tərəfin niyyətinin göstərilməsi üçün hər hansı üsuldan istifadə olunubsa və,

b. istifadə olunan üsul:

c. hər hansı müvafiq razılaşma da daxil olmaqla, bütün hallar nəzərə alınaraq, elektron kommunikasiya hazırlandığı və ya göndərildiyi məqsədə cavab verəcək qədər etibarlı və münasib olduqda; və ya

d. yuxarıdakı (a) yarımbəndində qeyd edilən funksiyaların faktiki olaraq müstəqil və ya əlavə sübutlarla birlikdə yerinə yetirildiyi təsdiq edildikdə.

e. Qanunvericilik kommunikasiya və ya müqavilənin əsl nüsxəsinin əlçatan olmasını və ya saxlanılmasını tələb etdiyi təqdirdə, yaxud əsl nüsxəsinin mövcud olmamasına görə nəticələri müəyyən etdiyi təqdirdə, həmin tələb elektron kommunikasiyaya münasibətdə aşağıdakılar olduqda yerinə yetirilmiş hesab edilir:

f. ilk dəfə öz yekun formasında, elektron kommunikasiya və ya hər hansı digər şəkildə hazırlandığı zamandan etibarən əks etdirdiyi məlumatın bütövlüyünə etibarlı zəmanət olduqda; və

g. tərkibindəki məlumat təqdim edilməli olduğu halda, həmin məlumatın təqdim olunacaq şəxsə göstərilməsi mümkün olduqda.

5.4 (a) bəndinin məqsədləri üçün:

a. məlumatın bütövlüyünün qiymətləndirməsi meyarı hər hansı təsdiqləmədən və normal məlumat mübadiləsi, saxlanması və göstərilməsi zamanı yaranan hər hansı dəyişikliklərdən əlavə onun bütöv və dəyişdirilməmiş qalmasıdır;

b. tələb olunan etibarlılıq dərəcəsi informasiyanın hazırlandığı məqsəd, habelə bütün müvafiq hallar nəzərə alınmaqla qiymətləndirilməlidir.

Maddə 10. **Elektron kommunikasiyaların göndərilməsi və qəbul edilməsi vaxtı və yeri**

1. Elektron kommunikasiyanın göndərilmə vaxtı, onun təşəbbüskarının və ya təşəbbüskarın adından göndərən tərəfin nəzarəti altında informasiya sistemindən çıxdığı vaxt nəzərdə tutulur və ya əgər elektron kommunikasiya onun təşəbbüskarının və ya təşəbbüskarın adından göndərən tərəfin nəzarəti altındakı informasiya sistemindən çıxmazsa, elektron məlumatın qəbul edildiyi vaxt nəzərdə tutulur.

2. Elektron kommunikasiyanın qəbul edilmə vaxtı dedikdə, onun ünvan sahibinin qeyd etdiyi elektron ünvandan ünvan sahibinin çıxarmasının mümkün olduğu vaxt nəzərdə tutulur.

Elektron kommunikasiyanın ünvan sahibinin qeyd etdiyi digər elektron ünvanda qəbul edilmə vaxtı, onun həmin ünvanda ünvan sahibi tərəfindən çıxarılmasının mümkün olduğu vaxt nəzərdə tutulur və elektron kommunikasiyanın həmin ünvana göndərildiyi barədə ünvan sahibi məlumatlanır. Ünvan sahibi tərəfindən elektron məlumatın çıxarılması imkanı məlumatın ünvan sahibinin elektron ünvanına daxil olduğu zamandan yarandığı hesab edilir.

3. 6-cı maddəyə uyğun olaraq müəyyən edildiyi kimi, elektron kommunikasiya onun təşəbbüskarının fəaliyyət yerindən göndərilmiş və ünvan sahibinin fəaliyyət yerində qəbul edilmiş hesab olunur.

4. Bu maddənin 2-ci bəndi elektron ünvanı dəstəkləyən informasiya sisteminin elektron kommunikasiyanın bu maddənin 3-cü bəndinə əsasən qəbul edilmiş hesab edildiyi məkandan fərqli olmasından asılı olmayaraq tətbiq edilir.

Maddə 11. **Ofertaya dəvət**

Bir və ya daha çox konkret tərəflərə ünvanlanmayan, lakin informasiya sistemləri vasitəsilə sifarişlərin yerləşdirilməsi üçün interaktiv ərizə formalarından istifadə yolu ilə edilən təkliflər də daxil olmaqla, həmin informasiya sistemlərindən istifadə edən tərəflərə ümumilikdə çatdırılan, müqavilə bağlamaq haqqında bir və ya daha çox elektron kommunikasiya vasitəsilə edilən təklif, təklif verən tərəfin təklif qəbul edildiyi halda öhdəlik götürəcəyi niyyəti aydın şəkildə göstərilərsə, təklifin təqdim edilməsi üçün dəvət kimi hesab olunmalıdır.

Maddə 12. **Müqavilə bağlanılması üçün avtomatlaşdırılmış ismarıc sistemlərindən istifadə**

Avtomatlaşdırılmış ismarıc sistemi və hər hansı fiziki şəxs arasında qarşılıqlı əlaqə, yaxud avtomatlaşdırılmış ismarıc sistemləri ilə qarşılıqlı əlaqə nəticəsində bağlanan müqavilənin etibarlılığı və hüquqi qüvvəsi hər hansı fiziki şəxs tərəfindən avtomatlaşdırılmış ismarıc sistemləri vasitəsilə həyata keçirilən hər bir ayrıca fəaliyyətin və ya yekun müqavilənin nəzərdən keçirilməməsi və ya ona müdaxilə edilməməsi səbəbindən təkzib edilmir.

Maddə 13. **Müqavilə şərtlərinin mövcudluğu**

Bu Konvensiyada heç nə elektron kommunikasiya mübadiləsi vasitəsilə müqavilənin bəzi və ya bütün şərtlərini müzakirə edən tərəfdən müqavilə şərtlərini özündə ehtiva edən elektron kommunikasiyanı digər tərəfə hər hansı konkret formada əlçatan etməyi tələb edə bilən hər hansı hüquq normasının tətbiqinə təsir etmir və ya tərəfi bu tələbin yerinə yetirilməməsinin hüquqi nəticələrindən azad etmir.

Maddə 14. **Elektron kommunikasiyalarda səhvlər**

1. Fiziki şəxs digər tərəfin avtomatlaşdırılmış ismarıc sistemi ilə mübadilə predmeti olan elektron kommunikasiyanı daxil edərkən səhvə yol verərsə və həmin avtomatlaşdırılmış ismarıc sistemi həmin şəxsə səhvi aradan qaldırmaq imkanı verməzsə, həmin şəxs və ya həmin şəxsin adından çıxış edən tərəf elektron kommunikasiyanın səhvə yol verilən hissəsini geri götürmək hüququna malikdir, əgər:

a. fiziki şəxs və ya onun adından çıxış edən tərəf xətanı aşkar etdikdən sonra mümkün qədər tez bir zamanda digər tərəfə həmin səhv barədə məlumat verirsə və onun elektron kommunikasiyada səhvə yol verdiyini göstərirsə; və

b. fiziki şəxs və ya onun adından çıxış edən tərəf digər tərəfdən qəbul edildiyi halda, hər hansı əmtəə və ya xidmətlərdən istifadə etməzsə və ya hər hansı maddi mənfəət və ya dəyər əldə etməzsə.

2. Bu maddədə heç nə 1-ci bənddə qeyd edilənlərdən əlavə, hər hansı digər səhvin nəticələrini tənzimləyə bilən istənilən hüquq normasının tətbiqinə təsir etmir.

Fəsil IV

## YEKUN MÜDDƏALAR

**Maddə 15. Depozitari**

Bu Konvensiyanın depozitarisi Birləşmiş Millətlər Təşkilatının Baş katibi təyin olunur.

Maddə 16. **İmzalanma, ratifikasiya, qəbul və ya təsdiq**

1. Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı mənzil-qərargahında 2006-cı il 16 yanvar tarixindən 2008-ci il 16 yanvar tarixinədək bütün dövlətlərin imzalaması üçün açıqdır.

2. Bu Konvensiya onu imzalayan dövlətlər tərəfindən ratifikasiya, qəbul və ya təsdiq edilməlidir.

3. Bu Konvensiya imzalanmaya açıq elan edildiyi tarixdən etibarən onu imzalamayan bütün dövlətlərin qoşulması üçün açıqdır.

4. Ratifikasiya, qəbul, təsdiq və qoşulma sənədləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən saxlanca alınır.

Maddə 17. **Regional iqtisadi inteqrasiya təşkilatlarının iştirakı**

1. Suveren dövlətlər tərəfindən təşkil olunan və bu Konvensiya ilə tənzimlənən müəyyən məsələlər ilə əlaqədar səlahiyyətə malik olan regional iqtisadi inteqrasiya təşkilatı eyni qaydada bu Konvensiyanı imzalaya, ratifikasiya, qəbul, təsdiq edə və ya bu Konvensiyaya qoşula bilər. Bu halda, regional iqtisadi inteqrasiya təşkilatı bu Konvensiya ilə tənzimlənən məsələlərlə əlaqədar səlahiyyətə malik olduğu çərçivədə Razılığa gələn Dövlətin hüquq və öhdəliklərinə malikdir. Bu Konvensiya üçün Razılığa gələn Dövlətlərin sayı əsas olarsa, o zaman regional iqtisadi inteqrasiya təşkilatının üzvü olan dövlətlərə əlavə olaraq, həmin təşkilatın özü Razılığa gələn Dövlət kimi hesab olunmayacaqdır.

2. Regional iqtisadi inteqrasiya təşkilatı imzalama, ratifikasiya, qəbul, təsdiq və ya qoşulma zamanı bu Konvensiya ilə tənzimlənən məsələlərə münasibətdə öz üzv dövlətləri tərəfindən həmin təşkilata ötürülmüş səlahiyyətlər barədə depozitariyə bəyanat verir. Regional iqtisadi inteqrasiya təşkilatı, yeni səlahiyyət ötürmələri də daxil olmaqla, bu bəndə uyğun olaraq verilmiş bəyanatında göstərilən səlahiyyət bölgüsündəki hər hansı dəyişikliklər haqqında depozitariyə dərhal məlumat verməlidir.

3. Bu Konvensiyada "Razılığa gələn Dövlət"ə və ya "Razılığa gələn Dövlətlər"ə edilən hər hansı istinad mahiyyət tələb etdiyi təqdirdə, eyni qaydada, regional iqtisadi inteqrasiya təşkilatına da tətbiq edilir.

4. Bu Konvensiya, 21-ci maddəyə uyğun olaraq edilmiş bəyanatda müəyyən olunduğu kimi, müvafiq fəaliyyət yeri regional iqtisadi inteqrasiya təşkilatının üzv

ölkəsində yerləşən tərəflərə tətbiq oluna bilən həmin təşkilatın hər hansı qaydaları ilə ziddiyyət təşkil etdikdə, üstün qüvvəyə malik deyildir.

Maddə 18. **Yerli ərazi vahidlərində qüvvədə olma**

1. Əgər Razılığa gələn Dövlət bu Konvensiyanın tənzimləmə predmetinə aid olan məsələlərə münasibətdə müxtəlif hüquq sistemləri tətbiq olunan iki və ya daha çox ərazi vahidinə malikdirsə, o, Konvensiyanı imzaladığı, ratifikasiya, qəbul, təsdiq etdiyi və ya Konvensiyaya qoşulduğu zaman bəyan edə bilər ki, bu Konvensiya onun bütün və ya yalnız bir və ya daha çox ərazi vahidinə şamil edilir, həmçinin istənilən vaxt başqa bəyanat təqdim etməklə, özünün bəyanatına dəyişiklik edə bilər.

2. Bu bəyanatlar haqqında depozitariyə məlumat verilməlidir və orada Konvensiyanın şamil olunduğu ərazi vahidləri aydın şəkildə qeyd edilməlidir.

3. Əgər bu maddəyə uyğun olaraq edilmiş bəyanata əsasən, bu Konvensiya Razılığa gələn Dövlətin bütün ərazi vahidlərinə deyil, yalnız bir və ya daha çox ərazi vahidinə şamil edilirsə və tərəfin fəaliyyət yeri həmin dövlətdə yerləşirsə və bu Konvensiyanın məqsədləri üçün bu fəaliyyət yeri Konvensiyanın şamil edildiyi ərazi vahidində deyildirsə, onun Razılığa gələn Dövlətdə yerləşməsi nəzərdə tutulmur.

4. Əgər Razılığa gələn Dövlət bu maddənin 1-ci bəndinə uyğun olaraq, heç bir bəyanat vermirsə, o zaman bu Konvensiya həmin dövlətin bütün ərazi vahidlərinə şamil olunur.

Maddə 19. **Tətbiq dairəsi üzrə bəyanatlar**

1. Hər hansı Razılığa gələn Dövlət 21-ci maddəyə uyğun olaraq, bu Konvensiyanı yalnız aşağıdakı hallarda tətbiq edəcəyini bəyan edə bilər:

a. əgər 1-ci maddənin 1-ci bəndində istinad edilən dövlətlər bu Konvensiyanın Razılığa gələn Dövlətləri olarsa, və ya

b. əgər tərəflər bunun tətbiq edilməsi ilə razılaşarlarsa.

2. Hər hansı Razılığa gələn Dövlət 21-ci maddəyə uyğun olaraq edilmiş bəyanatda müəyyən etdiyi məsələləri bu Konvensiyanın tətbiq dairəsindən çıxara bilər.

Maddə 20. **Digər beynəlxalq konvensiyalara uyğun olaraq mübadilə edilən kommunikasiyalar**

1. Bu Konvensiyanın müddəaları bu Konvensiyanın Razılığa gələn Dövlətinin Razılığa gələn Dövlət olduğu və ya ola biləcəyi aşağıdakı beynəlxalq konvensiyalardan hər hansı birinin tətbiq edildiyi müqavilənin bağlanması və ya yerinə yetirilməsi ilə əlaqədar elektron kommunikasiyalardan istifadəyə şamil edilir:

“Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında” Konvensiya (Nyu- York, 1958-ci il 10 iyun);

“Beynəlxalq əmtəə satışında məhdudiyyət müddəti haqqında” Konvensiya (NyuYork, 1974-cü il 14 iyun) və ona Əlavə Protokol (Vyana, 1980-ci il 11 aprel);

Birləşmiş Millətlər Təşkilatının "Beynəlxalq əmtəə satışı üzrə əqdlər haqqında Konvensiyası" (Vyana, 1980-ci il 11 aprel);

Birləşmiş Millətlər Təşkilatının "Beynəlxalq ticarətdə nəqliyyat terminalları operatorlarının məsuliyyəti haqqında Konvensiyası" (Vyana, 1991-ci il 19 aprel); Birləşmiş Millətlər Təşkilatının "Sərbəst zəmanətlər və ehtiyat akkreditivlər haqqında Konvensiyası" (Nyu-York, 1995-ci il 11 dekabr);

Birləşmiş Millətlər Təşkilatının "Beynəlxalq ticarətdə debitor borclarının ötürülməsi haqqında Konvensiyası" (Nyu-York, 2011-ci il 12 dekabr).

2. Əgər dövlət 21-ci maddəyə uyğun olaraq bu bəndin ona münasibətdə məcburiliyini tanımadığı barədə bəyanat verməzsə, bu Konvensiyanın müddəaları hazırkı maddənin 1-ci bəndində konkret olaraq göstərilməyən bu Konvensiyanın Razılığa gələn Dövlətinin Razılığa gələn Dövlət olduğu və ya ola biləcəyi digər beynəlxalq konvensiya, müqavilə və ya sazişin tətbiq edildiyi müqavilənin bağlanması və yerinə yetirilməsi ilə əlaqədar elektron kommunikasiyalara da şamil edilir.

3. Bu maddənin 2-ci bəndinə uyğun olaraq bəyanat verən dövlət, həmçinin bəyanat verə bilər ki, o, bu Konvensiyanın müddəalarını həmin dövlətin Razılığa gələn Tərəf olduğu və ya ola biləcəyi konkret beynəlxalq konvensiyanın, müqavilənin və ya sazişin tətbiq edildiyi hər hansı müqavilənin bağlanması və ya yerinə yetirilməsi ilə əlaqədar elektron kommunikasiyalardan istifadə edilməsinə də tətbiq edəcəkdir.

4. Hər hansı dövlət 21-ci maddəyə uyğun olaraq verdiyi bəyanat vasitəsilə bu maddənin 2-ci bəndinin tətbiqini istisna etməsə belə, o, bu maddənin 1-ci bəndində istinad edilən konvensiyaların hər hansı biri də daxil olmaqla, həmin dövlətin bəyanatında qeyd edilmiş Razılığa gələn Dövlət olduğu və ya ola biləcəyi hər hansı beynəlxalq konvensiyanın, müqavilənin və ya sazişin şamil edildiyi müqavilənin bağlanması və ya yerinə yetirilməsi ilə əlaqədar elektron kommunikasiyalardan istifadə edilməsinə dair bu Konvensiyanın müddəalarını tətbiq etməyəcəyinə dair bəyanat verə bilər.

Maddə 21. **Bəyanatların prosedur və təsirləri**

1. 17-ci maddənin 4-cü bəndinə, 19-cu maddənin 1-ci və 2-ci bəndlərinə və 20-ci maddənin 2-ci, 3-cü və 4-cü bəndlərinə uyğun olaraq bəyanatlar istənilən vaxt verilə bilər. İmzalanma zamanı verilən bəyanatlar ratifikasiya, təsdiq və qəbul zamanı təsdiq edilməlidir.

2. Bəyanatlar və onların təsdiqi yazılı şəkildə olmalı və depozitariyə rəsmi qaydada bildirilməlidir.

3. Bəyanat aidiyyəti dövlətlə münasibətdə bu Konvensiyanın qüvvəyə minməsi ilə eyni vaxtda qüvvəyə minir. Lakin belə qüvvəyə minmədən sonra depozitarinin rəsmi bildiriş aldığı bəyanat depozitari tərəfindən alındığı tarixdən altı ay sonrakı ayın birinci günündə qüvvəyə minir.

4. Bu Konvensiyaya uyğun olaraq bəyanat verən hər hansı dövlət depozitariyə yazılı şəkildə ünvanlanmış rəsmi bildiriş vasitəsilə bu bəyanatı istənilən vaxt dəyişdirə və ya ondan imtina edə bilər. Dəyişiklik və ya imtina depozitari tərəfindən bildiriş alındığı tarixdən altı ay sonrakı ayın birinci günündə qüvvəyə minir.

Maddə 22. **Qeyd-şərtlər**

Bu Konvensiyaya heç bir qeyd-şərt edilə bilməz.

Maddə 23. **Qüvvəyə minmə**

1. Bu Konvensiya üçüncü ratifikasiya, təsdiq, qəbul və ya qoşulma sənədinin saxlanca alınması tarixindən altı ay sonrakı ayın birinci günündə qüvvəyə minir.

2. Əgər dövlət üçüncü ratifikasiya, təsdiq, qəbul və ya qoşulma sənədinin saxlanca verilməsindən sonra bu Konvensiyanı ratifikasiya, təsdiq, qəbul edərsə və ya ona qoşularsa, bu Konvensiya həmin dövlətlə münasibətdə onun ratifikasiya, təsdiq, qəbul və ya qoşulma sənədinin saxlanca verildiyi tarixdən altı ay sonrakı ayın birinci günündə qüvvəyə minir.

Maddə 24. **Tətbiq edilmə vaxtı**

Bu Konvensiya və hər hansı bəyanat bu Konvensiyanın və hər hansı bəyanatın hər bir Razılığa gələn Dövlətə münasibətdə qüvvəyə minməsindən və ya təsir göstərməsindən sonra hazırlanan elektron kommunikasiyalara tətbiq edilir.

Maddə 25. **Denonsasiya**

1. Razılığa gələn Dövlət Konvensiyanı yazılı şəkildə depozitariyə ünvanlanmış rəsmi bildiriş vasitəsilə denonsasiya edə bilər.

2. Denonsasiya bildirişin depozitari tərəfindən qəbul edilməsindən sonra on iki ay başa çatdıqdan sonrakı ayın birinci günündə qüvvəyə minir. Əgər bildirişdə denonsasiyanın qüvvəyə minməsi üçün daha uzun müddət müəyyən edilərsə, onda denonsasiya bildirişin depozitari tərəfindən qəbul edilməsindən sonra belə uzun müddət başa çatdıqdan sonra qüvvəyə minir. Nyu-Yorkda 2005-ci il 23 noyabr tarixində, ərəb, Çin, ingilis, fransız, rus və ispan dillərində olan mətnləri bərabər autentik olan, bir əsl nüsxədə imzalanmışdır. Bunun təsdiqi olaraq, öz müvafiq hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edən şəxslər bu Konvensiyanı imzaladılar.

**Birləşmiş Millətlər Təşkilatının**
**“Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya”sına dair**

**Azərbaycan Respublikasının BƏYANATLARI**

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).

Azərbaycan Respublikası bu Konvensiyanın 19-cu maddəsinin 1-ci bəndinə uyğun olaraq bəyan edir ki, o hazırkı Konvensiyanı yalnız bu Konvensiyanın 1-ci maddəsinin 1-ci bəndində göstərilən dövlətlərin bu Konvensiyanın Razılığa gələn Dövlətləri olduğu halda tətbiq edəcəkdir.

Konvensiyanın 19-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası bu Konvensiyanı Azərbaycan Respublikası qanunvericiliyinə əsasən notarial qaydada təsdiq edilmiş forma və ya dövlət qeydiyyatı tələb olunan əqdlərə münasibətdə tətbiq etməyəcəkdir.

Azərbaycan Respublikası Konvensiyada qeyd olunan beynəlxalq müqavilələri əcnəbi fiziki və hüquqi şəxsləri cəlb edən və ya xarici elementi olan mülki hüquq müqavilələri kimi başa düşür.